# KƏND TƏSƏRRÜFATI ÖLKƏNİN QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFINDA PRİORİTET TƏŞKİL EDİR

Artıq tarixə çevrilmiş 2015-ci il dünyada yaşanmış və bu gün də davam edən siyasi-iqtisadi böhranla və iqtisadiyyatın inkişaf templərinin gözlənilməz azalması ilə səciyyələndirilir. Lakin bütün bu tənəzzül meyillərinə rəğmən 2015-ci ildə Azərbaycan iqtisadiyyatının inkişaf etməsi çox müsbət nailiyyət kimi qeyd edilməlidir. Ölkəmizi əhatə edən aləmdə baş verən siyasi çəkişmələr, iqtisadi sanksiyalar fonunda iqtisadi vəziyyətimizə olan mənfi təsirlərə baxmayaraq, Azərbaycan iqtisadiyyatı artmışdır. Ötən il ümumi daxili məhsul 1 faizdən çox, sənaye istehsalı 2,4 faiz, qeyri-neft sənayesi isə 8,4 faiz artmışdır. Bu nailiyyətlər ölkəmizdə dövlət başçısı cənab Prezident İlham Əliyev tərəfindən aparılan daxili və xarici siyasətin tərkib hissəsi olan islahatların nəticəsində qeyri-neft sektorunun inkişaf etməsi ilə mümkün olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2015-ci il 12 yanvar tarixli 988 nömrəli Sərəncamı ilə “Kənd təsərrüfatı ili” elan edilmiş ötən il respublikanın aqrar sahəsində əldə edilən nəticələr, müəyyən edilmiş hədəflərin uğurla icra edilməsi dövlətimizin göstərdiyi diqqət və qayğının, Kənd Təsərrüfatı Nazirliyi sistemində çalışan hər bir işçinin, kənd təsərrüfatı məhsulları istehsalçılarının gərgin əməyi nəticəsində mümkün olmuşdur.

Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev əldə edilən uğurlarla yanaşı, kənd təsərrüfatına xüsusi önəm verərək onun inkişaf etdirilməsi istiqamətində qarşıda duran vəzifələri də müəyyən etmişdir: **“İxrac qabiliyyətimizi artırmalıyıq. Çünki gələcəkdə bizim neft və qazdan başqa əsas ixrac məhsullarımız kənd təsərrüfatı məhsullarıdır”.**

**Daha sonra dövlət başçısı demişdir: “Nəzərə alsaq ki, keçən il meliorasiya işləri ilə bağlı çox ciddi addımlar atılmışdır, biz yararsız torpaqları dövriyyəyə buraxmalıyıq və minlərlə, on minlərlə hektar torpaq dövriyyəyə buraxılacaq. Artıq o torpaqlarda suvarma işləri təmin edilir və məhsuldarlığı, əkin sahələrini artırmalıyıq. Beləliklə, əminəm ki, biz bu il də kənd təsərrüfatında böyük artıma nail ola biləcəyik”.**

Bu vəzifələr kənd təsərrüfatı məhsulları istehsalçılarını və xidmət strukturlarını daha da səfərbər olmağa ruhlandırır, tapşırıqların layiqincə yerinə yetirilməsinə ciddi məsuliyyət yaradır, hər bir kəsdən vətəndaşlıq mövqeyi göstərməsini tələb edir.

—Ölkəmizdə kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsi, yeni çağırışlara uyğun sahə üzrə prioritet istiqamətlərin və strateji hədəflərin müəyyən edilməsi və institusional dəyişikliklərin aparılması aqrar sahənin keyfiyyətcə yeni mərhələyə keçməsinin təməlini qoymuşdur.

Respublika Prezidenti cənab İlham Əliyev kənd təsərrüfatı məhsulları istehsalçılarının texniki təminatı səviyyəsinin

**Keçən il “Kənd təsərrüfatı ili” idi. Mən çox şadam ki, “Kənd təsərrüfatı ili”ndə kənd təsərrüfatı 6,6 faiz artmışdır. Bu, çox gözəl göstəricidir, qeyri-neft sektorunun inkişafıdır. Kənd təsərrüfatı sahəsində aparılan islahatlar da bax, bu vəziyyəti şərtləndirir. Bu islahatlar daha da dərinləşməlidir. Belə olan halda biz özümüzü ərzaq məhsulları ilə tam, yəni, 100 faiz təmin edə bilərik və ərzaq məhsullarının tərkibində yerli komponent daha da böyük həcmdə ola bilər. Vəzifəmiz isə özümüzü ərzaq məhsulları ilə 100 faiz təmin etməkdir. Ərzaq təhlükəsizliyi bu deməkdir.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

yüksəldilməsi, texnikanın və avadanlıqların kənd təsərrüfatı məhsulları istehsalçılarına güzəştli şərtlərlə verilməsi məqsədilə 2004-cü il oktyabrın 23-də imzaladığı sərəncama əsasən ölkəmizdə “Aqrolizinq” ASC yaratmaqla kənd təsərrüfatının inkişafında yeni mərhələnin əsasını qoymuşdur.

Respublikamızda həyata keçirilən aqrar islahatların icrasında əsas hökumət strukturu olan Kənd Təsərrüfatı Nazirliyinin xidmətləri xüsusi vurğulanmalıdır. Kənd təsərrüfatı naziri Heydər Əsədovun təşəbbüskarlığı və təşkilatçılığı nəticəsində aqrar sektorda əsaslı dəyişikliklər baş vermiş, kənd təsərrüfatının sürətli inkişafına xidmət edən normativ-hüquqi baza təkmilləşdirilmişdir. İdarəetmədə səmərəliliyin, şəffaflığın artması və bürokratik əngəllərin aradan qaldırılması məqsədilə elektron kənd təsərrüfatı sisteminin yaradılması və fəaliyyət göstərməsi nazirliyin strukturları və kənd təsərrüfatı məhsulları istehsalçıları arasında operativ qarşılıqlı əlaqəni təmin etmişdir.

Azərbaycan Respublikası Prezidentinin aqrar sahəyə göstərdiyi daim diqqət və qayğı nəticəsində kənd təsərrüfatı sektorunda həyata keçirilən islahatlar 2014-cü ildən başlayaraq daha geniş vüsət almışdır.

Nazirlər Kabinetinin 2014-cü il 13 avqust tarixli 273 nömrəli qərarına əsasən “Aqrolizinq”ASC tərəfindən yeni alınan, lizinqə verilən və lizinq yolu ilə satılan texnikaya güzəştlərin tətbiq edilməsi Qaydaları” təsdiq edildikdən sonra kənd təsərrüfatı üzrə fəaliyyət göstərən fiziki və hüquqi şəxslərin texnika təminatında ciddi dönüş yaranmışdır.

Kənd təsərrüfatının inkişafına yeni təkan vermək və onun modernləşdirilməsini sürətləndirmək, aqrar sektorda mövcud problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmək, bu sahəyə dövlətin inzibati və maliyyə resurslarını səmərəli şəkildə cəlb etmək, ölkəmizin aqrar potensialını geniş təbliğ etmək məqsədi ilə Kənd Təsərrüfatı Nazirliyi miqyaslı işlər həyata keçirir. Nazirliyin rəhbərliyi və “Aqrolizinq” ASC respublikamızda aqrar sahədə tələb olunan müasir kənd təsərrüfatı texnikası, mineral gübrələr, cins damazlıq heyvanlar və digər mal-material qiymətliləri ilə təmin olunması istiqamətində fəaliyyətini günün tələbləri səviyyəsində təşkil etmək üçün silsilə tədbirlər görmüşdür. Kənd təsərrüfatı məhsullarının istehsal texnologiyasında mexanikləşdirilmiş işlərin aqrotexniki müddətlərdə



və yüksək keyfiyyətlə aparılmasını, məhsulların maya dəyərinin əl əməyinin azaldılması hesabına aşağı salınmasını təmin etmək məqsədi ilə respublikaya xaricdə istehsal edilmiş müasir texnikanın və mütərəqqi texnologiyanın gətirilməsinə və fermerlərin istifadəsinə verilməsinə prioritet verilir.

“Kənd təsərrüfatı ili”ndə ölkənin aqrar təsərrüfatına dövlət başçısı tərəfindən göstərilən diqqət və qayğının nəticəsini Nazirlər Kabinetinin 10 yanvar 2015-ci il tarixli iclasında kənd təsərrüfatı naziri Heydər Əsədov belə şərh etmişdir: **“Hesabat ili qlobal miqyasda büdcə xərclərinə qənaət rejiminin tətbiq olunması fonunda ölkəmizdə kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin artırılması və əhatə dairəsinin genişləndirilməsi ilə yadda qalıb. Bu**




**məqsədlə “Aqrolizinq” ASC tərəfindən lizinqə verilən kənd təsərrüfatı texnikalarının ilkin dəyərinə 40 faiz güzəşt tətbiq olunub ki, nəticədə bir il ərzində 4100 nəfər texnika istifadəçisi yerlərdə “ASAN xidmət” prinsipi ilə 50 milyon manatadək güzəşt əldə edib. Bu isə onların həmin sahəyə investisiya imkanlarını xeyli artırıb. Sabit büdcə ayırmaları, yığımın kəskin şəkildə artırılması və dövriyyənin sürətləndirilməsi hesabına son 2 ildə əsasən Avropa istehsalı olan 6900-dən çox kənd təsərrüfatı texnikası alınaraq lizinqə verilib ki, bu göstərici də ASC-nin yarandığı tarixdən gətirilən texnikaların 62 faizini təşkil edir. Fermerlərə satılan gübrənin qiymətinə tətbiq edilən güzəşt 50 faizdən 70 faizə, güzəşt məbləğinin yuxarı həddi isə hər hektara görə 50 manatdan 80 manata qaldırılıb ki, bunun nəticəsində də əvvəlki illərlə müqayisədə ölkəyə gətirilən gübrənin həcmi 85 min tondan 150 min tona çatdırılmaqla, inkişaf etmiş dövlətlərdəki səviyyəyə uyğunlaşmaq üçün ciddi addım atılıb. Yanacaq və motor yağlarına görə verilən subsidiyanın həcmi 25 faiz artırılaraq 50 manata yüksəldilib ki, bununla da həmin məqsədlə büdcədən verilən subsidiyanın həcmi 22 faiz artırılıb”.**

Dövlətin fermerlərə, kənd təsərrüfatı məhsulları istehsalçılarına göstərdiyi diqqət və qayğı Kənd Təsərrüfatı Nazirliyi xətti ilə həyata keçirilən tədbirlərdə daha aşkar görünür. Belə ki, “Aqrolizinq” ASC-dən lizinq yolu ilə texnika alan vətəndaşlara aldıqları texnika, “ASAN xidmət” prinsipi ilə Cəmiyyətin Gəncə şəhərində və rayonlarda yerləşən təchizat bazalarında kənd təsərrüfatı naziri tərəfindən bütün sənədlərlə birlikdə təqdim edilməsi artıq ənənəyə çevrilmişdir.

“Aqrolizinq” ASC-də daimi fəaliyyət göstərən güzəşt komissiyası Nazirlər Kabinetinin 2014-cü il 13 avqust tarixli 273 nömrəli qərarına əsasən kənd təsərrüfatı nazirinin tövsiyəsi ilə lizinqə verilən və lizinq yolu ilə satılan texnikaya güzəştlərin tətbiq edilməsi haqqında vətəndaşların onlayn müraciətlərinə operativ baxılması, fermer və sahibkarların əlavə vaxt itirməməsi üçün bölgələrdə keçirdiyi səyyar iclasları vətəndaşlara göstərilən xidmətin şəffaflığını, çevikliyinin göstəricisi kimi qəbul edilir və əhali tərəfindən müsbət addım kimi dəyərləndirilir.

Qeyd etmək lazımdır ki, 2005-2015-ci illər ərzində “Aqrolizinq” ASC tərəfindən 23641 ədəd kənd təsərrüfatı texnikası, o cümlədən 1869 ədəd taxılyığan kombayn, 7265 ədəd traktor və 14305 ədəd kənd təsərrüfatı maşınları gətirilərək kənd təsərrüfatı məhsulları istehsalçılarının istifadəsinə verilmişdir. Xüsusi ilə qeyd edilməlidir ki, son iki ildə “Aqrolizinq” ASC tərəfindən müasir tələblərə cavab verən 6427 ədəd kənd təsərrüfatı texnikası, o cümlədən 647 ədəd taxılyığan kombayn, 2120 ədəd traktor və 3642 ədəd digər kənd təsərrüfatı texnikası alınaraq istifadəyə verilmişdir.

Göründüyü kimi, alınmış texnikanın 30,7 faizini traktorlar, 7,9 faizini taxılyığan kombaynlar, 61,4 faizini isə digər kənd təsərrüfatı maşın və avadanlıqları təşkil edir. Kənd təsərrüfatı texnika parkında enerji vasitəsi kimi traktorların xüsusi çəkisinin 30,7% təşkil etməsi istehsalat proseslərinin mexanikləşdirilməsində əhəmiyyətli göstərici hesab edilir. Bu traktorlarla aqreqatlaşan kənd təsərrüfatı maşınları şleyfinin 61,4% təşkil etməsi istehsalın mexanikləşdirilmə səviyyəsinin artmaqda olduğunu göstərir. Başqa sözlə, bir traktora iki kənd təsərrüfatı maşını düşür ki, bu, texniki təminatın əsas şərtlərindən biri kimi müsbət hal hesab edilə bilər. Digər əsas şərtlərdən biri, indiki iqtisadi şəraitin tələblərinə uyğun mövcud texnikadan səmərəli istifadə edilməsidir.

Gətirilən texnikanın istehsalçı ölkələri müxtəlifdir, belə ki, Çin, Rusiya, Almaniya, Belçika, Finlandiya, Türkiyədən gətirilən texnika üstünlük təşkil edir. Kənd təsərrüfatı məhsulu istehsalçılarının istəyinə uyğun son iki ildə respublikaya Avropa ölkələrində istehsal edilmiş texnikanın gətirilməsinə üstünlük verilir. 2014-2015-ci illərdə alınmış taxılyığan kombaynların 507 ədədi Avropa ölkələrində istehsal olunandır. Fermerlərin istifadəsinə verilən traktorların 94,8%-ini Gəncə Avtomobil Zavodu İB-də yığılmış “Belarus” markalı traktorlar təşkil edir.Traktorlardan 5,2 faizi isə Avropa ölkələrinin istehsalıdır.

2005-2015-ci illərdə “Aqrolizinq” ASC tərəfindən alınmış texnikanın növlər üzrə istismarda olma müddətləri maraq doğurur. Belə ki, hər bir kənd təsərrüfatı texnikasının normativ xidmət müddəti vardır. Bu baxımdan texnika normativ xidmət müddəti ərzində istismar edilərkən istehsalçı firma tərəfindən qoyulmuş texniki-texnoloji göstəricilərini saxlamalıdır. Texnikaya xidmət müddəti ərzində texniki xidmət və təmirlər üzrə təlimatlara əməl edildiyi və keyfiyyətli servis aparıldığı halda texnika uzun müddət istifadə edilə bilər. Qabaqcıl mexanizatorların təcrübəsi göstərir ki, texnikanı il ərzində optimal yükləmələr, vaxtlı-vaxtında texniki xidmət aparıldıqda onun xidmət ömrü əhəmiyyətli dərəcədə uzanır. Qeyd edilənləri nəzərə alaraq texnika parkının istismar müddətinə görə paylanmasını nəzərdən keçirmək maraq doğurur.



2005-2015-ci illərdə “Aqrolizinq” ASC tərəfindən alınmış texnikanın növlər üzrə istismarda olma müddətlərinə görə təhlili göstərir ki, cəmi texnikanın 23,4%-i 8 ildən çox müddətdə istismarda olanlar, 76,6%-i isə 8 ildən az istismarda olan yeni texnikadır. Cəmi texnikanın 27,2%-i son iki ildə gətirilən texnikadır.




Texnika parklarının yenilənmə səviyyəsini əks etdirən diaqramdan görünür ki, Səhmdar Cəmiyyətin ümumi texnika parkının yenilənmə səviyyəsi 76,6%təşkil edir. Taxılyığan kombayn parkının yenilənmə səviyyəsi 69,8%, traktor parkının yenilənmə səviyyəsi 79,2%, ekskavator parkının yenilənmə səviyyəsi 40,6%, digər kənd təsərrüfatı maşın və avadanlıqlarının yenilənmə səviyyəsi 76,7% təşkil edir. Göründüyü kimi, traktor, kombayn və digər kənd təsərrüfatı maşın və avadanlıqları parkının yenilənmə səviyyəsi çox yüksəkdir.

Təhlil göstərir ki, yenilənmiş ümumi texnika parkının 35,5%-ini, taxılyığan kombaynların 49,6%-ini, traktorların 36,9%-ini, ekskavatorların 22,0%-ini və digər kənd təsərrüfatı maşın və avadanlıqlarının 33,2%-ini son iki ildə gətirilən texnika təşkil edir.

Qeyd edilməlidir ki, 2015-ci ildə 1035 ədəd traktor, 155 ədəd taxılyığan kombayn, 17 ədəd ekskavator, 1763 ədəd digər kənd təsərrüfatı maşın və avadanlıqları alınaraq kənd təsərrüfatı məhsulları istehsalçılarının istifadəsinə verilmişdir.

Səhmdar Cəmiyyətin traktor parkının istismar illərinə görə paylanması göstərir ki, parkın tərkibində 5 ildən az müddətdə istismar edilən traktorların xüsusi çəkisi 58 % təşkil edir.

Taxılyığan kombayn parkının yenilənmə səviyyəsinin təhlilindən görünür ki, taxılyığan kombayn parkının tərkibində 5 ildən az müddətdə istismar olunan kombaynların xüsusi çəkisi 47%, son iki ildə istismar olunan kombaynların xüsusi çəkisi isə 34,6 % təşkil edir. Bu məlumatlar göstərir ki, traktor və kombaynların istismar olunma imkanı böyükdür.

Eyni ilə bu dinamikanı digər kənd təsərrüfatı maşın və avadanlıqlarının da istismar müddətində görmək mümkündür. Belə ki, 5 ildən az istismar olunan digər kənd təsərrüfatı maşın və avadanlıqlarının xüsusi çəkisi 52,4 %, 2 ilədək istismar edilən maşınların xüsusi çəkisi 25,5 % təşkil edir.

Aparılmış müqayisəli təhlil göstərir ki, ölkənin texnika parkının, o cümlədən traktor, kombayn və digər kənd təsərrüfatı maşın və avadanlıqları parkının yenilənməsi son illərdə böyük sürətlə həyata keçirilir. Bu, respublikada kənd təsərrüfatının daha müasir texnika ilə təminatının əsas göstəricilərindən biridir.

Səhmdar Cəmiyyət tərəfindən alınmış texnikanın fiziki və hüquqi şəxslərə lizinqə verilməsi və lizinq yolu ilə satılmasında son iki ildə ciddi dinamika əldə edilmişdir. Belə ki, texnika növləri üzrə bütünlükdə 2005-2014-cü illərdə 11197 texnika lizinqə verildiyi halda, son iki ildə 6893 texnika lizinqə verilmişdir. Bu isə son iki ildə lizinqə verilən texnikanın əvvəlki dövrlə müqayisədə 62% artdığını göstərir.

Ayrı-ayrı texnika növlərinin fiziki və hüquqi şəxslərə lizinqə verilməsi və lizinq yolu ilə satılmasında da dinamika vardır. Belə ki, son iki ildə əvvəlki dövrdə lizinqə verilən texnikanın 1,33 dəfə çox taxılyığan kombayn, 60,7 % -i qədər traktor, 27%-i qədər ekskavator, 59,4%-i qədər digər kənd təsərrüfatı texnikası fiziki və hüquqi şəxslərə lizinqə verilmiş və ya lizinq yolu ilə satılmışdır.

Təhlil göstərir ki, son illərdə ölkənin kənd təsərrüfatının texniki təminatının və kənd təsərrüfatı məhsulları istehsalçılarına göstərilən xidmətin səviyyəsinin yüksəldilməsində qarşıya qoyulan vəzifələr uğurla icra edilməkdədir.

Nazirlər Kabinetinin iclasında qeyd edildiyi kimi, cari mövsümdən etibarən verilən subsidiya və güzəştlərin ikinci əkinə də şamil olunması, yəni, il ərzində iki dəfə əkin aparan kənd təsərrüfatı məhsulu istehsalçısına ikinci dəfə subsidiyanın verilməsi qərara alınması ölkədə yem təminatının gücləndirilməsində xüsusi rol oynayacaq. Bu ildən etibarən müasir suvarma sistemlərinin dəyərinin 40 faizinin dövlət tərəfindən ödənilməsi suvarma əkinçiliyinin inkişafına güclü təkan verəcəkdir. Eyni zamanda , müasir suvarma sistemlərindən istifadə ənənəvi selləmə üsulunun yaratdığı deqradasiya və şoranlaşmanın qarşısını almaqla su resurslarına qənaət edilməsində mühüm rol oynayacaq.

Ötən ilin nailiyyətlərindən biri də “Aqrolizinq” ASC tərəfindən aparılan bütün əməliyyatların elektron uçot sisteminə keçilməsinin başa çatdırılması, avtomatlaşdırılmış informasiya sisteminin istismara verilməsi, texnikaya sifarişlərin, lizinqə vermə prosesinin, lizinq ödənişlərinin güzəşt tətbiqinin elektron formada idarə edilməsidir.

Qarşıdakı illərdə Kənd Təsərrüfatı Nazirliyinin əsas hədəflərindən biri məhsul istehsalçılarını keyfiyyətli, potensial məhsuldarlığı yüksək toxumlarla təmin etməkdir ki, bu da ölkədə keyfiyyətli toxum bazasının yaradılmasına, toxumçuluq ənənələrinin formalaşmasına, toxumçuluğun inkişafının səmərəli tənzimlənməsinə, bitkiçilik sahəsində məhsuldarlığın yüksəldilməsinə imkan yaradacaqdır.

2015-ci il dekabrın 24-ü vəziyyətinə 2016-cı ilin məhsulu üçün şumun qaldırılması və payızlıq taxılın səpini haqqında ilkin məlumatların təhlili göstərir ki, artıq növbəti il üçün bol məhsulun əsası qoyulmuşdur. 2015-ci illə müqayisədə 2016-cı il üçün taxıl əkinlərinin sahəsi 105,9% artaraq 927 min 428 ha, o cümlədən buğdanın əkin sahəsi 108,5 % artaraq 582 min 969 ha, arpanın əkin sahəsi isə 101,8 % artaraq 344429 ha təşkil etmişdir.

Qarşıdakı müddətdə mövcud texnikanın, lizinqdə olan, fərdi, sahibkar texnikasının və Səhmdar Cəmiyyətin regional nümayəndəlikləri və rayon bölmələrinin istifadəsində olan texnikanın yüksək texniki hazırlığa gətirilməsi, yaz tarla işlərinə hazırlanması, kənd təsərrüfatı bitkilərinin texnologiyasına, vegetasiya dövründə aqrotexniki norma və tələblərə uyğun olaraq becərilməsi üçün yaradılmış münbit şəraitdən səmərəli istifadə edilməsi hər bir kənd təsərrüfatı işçisinin müqəddəs vəzifəsi və vətəndaşlıq borcudur. İndi elə zamandır ki, hər kəs öz vətəndaşlıq mövqeyini ortaya qoymalı, dövlətin apardığı siyasətin icrasına töhfəsini verməlidir.

**İsrafil İSMAYILOV,**
**“Aqrolizinq” ASC-nin İdarə Heyətinin üzvü, texnika elmləri doktoru, professor.**